BAKI HÜQUQ MƏRKƏZİ
BHM
BAKU LAW CENTRE

BAKI HÜQUQ MƏRKƏZİ
BAKU LAW CENTRE

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SİYASİ-HÜQUQİ TƏDQİQATLAR İNSTİTUTU

# Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri

ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ

19-CU BURAXILIŞ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SİYASİ-HÜQUQİ TƏDQİQATLAR İNSTİTUTU
BAKI HÜQUQ MƏRKƏZİ

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT VƏ HÜQUQ QURUCULUĞUNUN AKTUAL PROBLEMLƏRİ

Elmi məqalələr məcmuəsi

## 19 – CU BURAXILIŞ

AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Elmi Şurasının 07 noyabr 2007-ci il tarixli qərarı ilə çapa məsləhət bilinmişdir (protokol № 11)

«ADİLOĞLU»
BAKI - 2007

## MÜNDƏRİCAT


**Ön söz** ........................................................ 7
**Yaşar Əliyev 70** ........................................................ 9

**I BÖLMƏ. DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ** .......... 11

**Алиев И.М.** Предмет Исламского права и характеристика его источников ........................................................ 12
**Nəsirov B.R.** İslam və demokratiya ........................................................ 19
**Азизов С.Т.** Роль системы права и системы законодательства в законотворческом процессе ........................................................ 23
**Алиев Р.И.** Разделение властей как форма организации власти в правовом государстве ........................................................ 29
**Самедов Э.Н.** Нормативно-правовой акт в системе источников современного права ........................................................ 35
**Musayev Ə.Ə.** Milli inkişafın strateji xətti ........................................................ 42
**Bektaşi S.İ.** Müasir məhkəmə sistemlərinin modelləri ........................................................ 50

**II BÖLMƏ. DÖVLƏT HÜQUQU** ........................................................ 59

**Abdullayev F.S.** Konstitusiya icraatında sübutetmə və onun mahiyyəti ......... 60
**Rüstəmzadə A.X.** Konstitusiya məhkəmə icraatının nəzəri məsələləri ............ 66
**Rzayev Ə.H.** Dövlət qulluqçusunun hüquqi statusu ........................................ 70
**Мустафаев К.Ш.** Особенности правового статуса иностранного гражданина в законодательстве Азербайджанской Республики ............ 75
**Quliyev N.S.** Vəzifəli şəxsin inzibati-hüquqi statusunun əlamətləri ............ 82

**III BÖLMƏ. MÜLKİ VƏ TƏSƏRRÜFAT (SAHİBKARLIQ) HÜQUQU** ........ 87

**Əliyev M.N.** Sosial təminat hüququnun sahəvi metodunun sosial xidmət institutunda təzahürü ........................................................ 88
**Qasımov A.M.** Əmək intizamı hüquqi kateqoriya kimi ........................................ 93
**Qasımov A.M., Dadaşov Z.N.** Hüquqi məsuliyyətin anlayışı və mahiyyəti .... 99
**Ахмедов И.Б.** Наследственные правоотношения: понятие и юридическое содержание ........................................................ 103
**Dadaşov Z.N.** Əmək intizamının sosial-iqtisadi aspekti ........................................ 110
**Мустафаев А.Ш.** Организационно-правовые формы социального обеспечения ........................................................ 114
**Hüseynov P.A.** Hüquqi tənzimetmə metodunu xarakterizə edən əlamətlər və onların sosial təminat hüququnun metodlarına təsiri ........................ 119
**Hüseynov R.A.** Sosial təminat və sosial müdafiə sistemləri: tarixi aspekt və inkişaf perspektivləri ........................................................ 125
**Cəfərov Z.İ.** Əmək hüququnun kateqoriyalar aparatı sistemində əmək sahəsinin anlayışı ........................................................ 132
**Əliyeva Ə.Ə.** Güzəştli vergi rejimləri tətbiq olunan dövlətlərdə vergiqoymanın xüsusiyyətləri ........................................................ 141

**Həsənzadə S.B.** Əlillərin sosial müdafiəsinin hüquqi tənzimlənməsi təkmilləşdirilməlidir ........................................................................ 148
**Cəmilova X.A.** Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işədüzəlməkdə çətinlik çətən vətəndaşların ayrı-ayrı kateqoriyaları üçün iş yerlərinin kvotalaşdırılması ........................................................................ 154
**Cəfərov M.Ə.** Əmək fəaliyyəti ilə məşğul olan miqrantlar haqqında ikitərəfli razılaşmaların məzmunu və onların əməkçi-miqrantların əmək münasibətlərinin tənzimlənməsində rolu ........................................ 158
**Hüseynov C.Ə.** Hakimlərin pensiya təminatı üzrə hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və xitamına səbəb olan hüquqi faktlar ............ 164
**Əliyev V.M.** Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin qorunmasının mülki-hüquqi müdafiəsinin anlayışı, mahiyyəti və əhəmiyyəti ........................................................................ 173
**Cəbrayılov H.Ə.** Prokurorluq orqanları əməkdaşlarının pensiya təminatının əsas xüsusiyyətləri ........................................................... 179
**Əliyev A.Ə.** Ezamiyyətlərə dair qanunvericiliyin inkişaf tarixi. ............... 184
**Алекперов Р.А.** Право человека на материальное обеспечение по старости, инвалидности и утраты кормильца (на основе материалов международных документов) ........................................................................ 195
**Tanrıverdiyev A.R.** Mülki-hüquqi məsuliyyətin anlayışı ........................... 203
**Adıgözəlov D.B.** Əməyin hüquqi tənzimlənməsinin lokal metodları ............ 210
**Hüseynov Ə.M., Kamilzadə M.** Vergi ödəyicilərinin hüquqlarının müdafiəsi qaydaları ........................................................................ 215
**Kazımov M.S.** Maliyyə insitutlarının kapital bazarında fəaliyyətinin nəzəri –praktiki aspektləri ........................................................................ 227
**Мамедов М.М.** Возмездность приобретения имущества как условие защиты добросовестного приобретателя ................................................ 236
**Кулиев Т.А.** Вина и санкции при гражданской ответственности по законодательству Российской Федерации и Азербайджанской Республики. ........................................................................ 239
**İbrahimov İ.M.** Daşınmaz əmlakın özgəninkiləşdirilməsinə dair hüquqi tənzimlənmənin inkişaf tarixi ........................................................................ 247
**Eyvazov T.E.** Sosial təminat hüququnun mənbələrinin zamana, məkana və şəxslərə görə qüvvəsi ........................................................................ 250
**Qələndərli S.H.** Sovet hüquq doktrinası əmək müqaviləsi haqqında .............. 253

**IV BÖLMƏ. CİNAYƏT HÜQUQU, CİNAYƏT PROSESİ, KRİMİNALİSTİKA VƏ MƏHKƏMƏ EKSPERTİZASI** ........................................................ **257**

**Məmmədov V.Q.** Vergi cinayətlərinin obyekti ............................................. 258
**Салимов К.Н.** К проблеме религиозного терроризма ............................... 261
**Əliyev N.K.** Cinayətin törədilməsində birgə iştirak etmə iştirakçılığın obyektiv əlamətlərindən biri kimi ........................................................ 268
**Кулиева Р.О.** Характеристика преступных сообществ, совершающих хищения в банковской сфере ........................................................................ 277
**Zahidov B.S.** Narkobiznesin mahiyyəti, təzahürləri və inkişaf meylləri ....... 282
**Балакишиева Е.Н.** Структура и динамика женской преступности ............ 294

**Əkbərov E.M.** Xüsusi müəssisənin ərazisi anlyışının müəyyən edilməsi........ 299
**Abdullayev A.M.** Qeyri-ənənəvi kriminal mədəniyyətin anlayışı............. 305
**Yusifov A.** Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin törətdikləri intizam hüqupozmalarının çoxluğu və onun formaları............ 311
**Qəfərov M.S.** İbtidai araşdıramada vəsatətlərə baxılmasının məcburiliyi proses iştirakçılarının hüquqlarının təmin edilməsinin vasitəsi kimi ............ 317
**Abbasov R.İ.** Криминалистическая характеристика способов совершения терроризма........................................................................................ 327
**Rüstəmov A.A.** İbtidai araşdırma mərhələsində prokurorun sübutetmədə iştirakı........................................................................................ 333
**Мамедов Н.Н.** Криминалистическая характеристика субъектов преступной деятельности в сфере использования компьютерных технологий............ 339
**Мамедлы Ф.Н.** Использование специальных знаний при расследовании преступлений, связанных с применением взрывных устройств ............ 347
**Usubov M.M.** Terrorçuluğun viktimoloji amilləri ...................................... 353
**Abbasov Ü.M.** Cinayətkarın şəxsiyyəti və cinayət məsuliyyətindən və cəzadan azad etmə məsələləri ............................................................ 359
**Məmmədov R.R.** Bank fəaliyyəti sahəsində törədilən cinayətlərin kriminalistik xarakteristikası (Kreditlərin alınması və verilməsinin ümumi qaydaları)........................................................................................ 367
**Aslanov H.A.** Qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə cinayətinə görə məsuliyyət nəzərdə tutan cinayət-hüquq normasının təkmilləşdirilməsi ........................................................................ 373
**Əliyev A.C.** Hərbi xidmət əleyhinə olan jinayətlərin anlayışını müəyyən edən qanun norması və mövjud problemlər ........................................ 377
**Баширов А.Д.** Изнасилование, совершенное с угрозой убийством или причинением тяжкого вреда здоровью потерпевшего или других лиц, а также с особой жестокостью ............................................................ 381
**Əliyev Y.Y.** Cinayət prosesinin məhkəmə mərhələsində məsuliyyətin labüdlüyünün cinayət-prosessual təminat vasitələri ................................ 384
**Məmmədov X.R.** Quranda cinayət məsuliyyətindən və cəzadan azad etmənin əsasları və şərtləri.............................................................. 390
**Bayramlı V.B.** Transmilli mütəşəkkil cinayətkarlığa qarşı BMT Konvensiyası və cinayət məhkəmə icraatı sferasında əməkdaşlıq haqqında digər beynəlxalq sənədlər. ............................................................ 399
**Hüseynov R.R.** Özgə əmlakını gizli yolla talama əməlləri ilə mübarizədə Azərbaycan Respublikası cinayət qanunvericiliyinin inkişafı haqqında........ 403
**Eyvazov R.Ə.** İbtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi........................................................................................ 412
**Алиева М.Ш.** Предмет защиты в деятельности адвоката защитника.......... 418
**Rəhimov C.V.** Cinayətlərin ibtidai araşdırılması prosesində axtarış istintaq hərəkətinin keçirilməsinin mərhələləri, onun bəzi taktiki və psixoloji xüsusiyyətləri........................................................................................ 422
**Cameyi M.** Mənimsəmə, israf etmə əməlləri ilə mübarizədə Azərbaycan Respublikası cinayət qanunvericiliyinin inkişafı haqqında........................ 427
**Baxışov F.Q.** Zəruri müdafiə haqqında cinayət qanunvericiliyinin inkişaf tarixi haqqında........................................................................................ 435

**İmanov C.F.** Cinayət Məcəlləsinin 263-cü maddəsinin sanksiyası və onun təkmilləşdirilməsi məsələləri ........................................................ 444
**İsmayılov Ü.D.** Yetkinlik yaşına çatmayanlara cəza təyin olunarkən nəzərə alınan hallar. ........................................................ 451
**Мамедов Дж.Ф.** К вопросу о вине в механизме психической причинности ........................................................ 456
**Babayev M.S.** Bəraət hökmü reabilitasiyanın hüquqi əsası kimi ........................ 465

**V BÖLMƏ. BEYNƏLXALQ HÜQUQ** ........................................................ **473**

**Əliyev Ə.İ.** İnsan hüquqlarının müdafiəsi və Azərbaycan Respublikası qanunvericiliyi ........................................................ 474
**Məmmədov R.K.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan müharibə cinayətlərinin transformasiya vəziyyəti haqqında ........... 488
**Adilov N.A.** Uşaq hüquqları sahəsində mühüm beynəlxalq normaların umumi xarakteristikası........................................................ 494
**Гаджиев Б.З, Гылыджев К.С.** Роль «смешанных» или интернационализированных трибуналов реализации международной уголовной ответственности индивидов........................................................ 500
**Рзаев Р.Ш.** Правило об исчерпании внутригосударственных средств как важнейший принцип международной защиты прав человека ................ 511
**Sadıqov Ə.İ.** Tranzitin azadlığı beynəlxalq enerji təhlükəsizliyinin təminat mexanizmi kimi ........................................................ 516
**Hümbətov A.Y.** Turizm sferasında əməkdaşlıq sferasında mühüm beynəlxalq təşkilatlar ........................................................ 523
**Gözəlov Ə.V.** İnvestisiya münasibətlərinin tənzimlənməsi: beynəlxalq normalar və dövlətdaxili qanunvericilik sistemi ........................................ 533
**Əliyev Ş.İ.** MDB dövlətlərinin sosial qanunvericiliklərinin ümumi xarakteristikası və müqayisəli təhlili........................................................ 538
**Баба-заде М.В.** Особенности международно-правового регулирования сотрудничества Азербайджанской Республики с Российской Федерацией.. 549
**Мустафаева А.** Современные вооруженные конфликты и проблемы детства........................................................ 559
**Mirzəyev X.M.** Müxtəlif regionlarda qaçqınlar probleminin beynəlxalq-hüquqi tənzimlənməsi sahəsində fəaliyyət göstərən mexanizmlər ................ 568
**Əliyev S.S.** Vətəndaşlıq məsələlərinin beynəlxalq-hüquqi tənzimlənməsində ikitərəfli və regional beynəlxalq sazişlər........................................ 576
**Əsgərova E.Q.** Beynəlxalq qeyri-hökumət təşkilatlarının təsnifatı və daxili strukturu ........................................................ 581
**Niyazov C.A.** Əməkçi-miqrantların hüquqi statusunun tənzimlənməsində BMT-nin fəaliyyəti və 1990-cı il Konvensiyası ........................................ 586
**Səfərov E.F.** Beynəlxalq təhlükəsizlik: anlayışı və tərkib elementləri ........... 598
**Панахов В.И.** Деятельность ООН в глобализирующемся мире ........................ 603
**Тагиев Т.Г.** О принципе исчерпания внутренних средств правовой защиты ........................................................ 612

**S.İ. Bektaşi**
***Bakı Apellyasiya Məhkəməsinin hakimi,***
***BDU-nun dissertantı***

# MÜASİR MƏHKƏMƏ SİSTEMLƏRİNİN MODELLƏRİ

Dövlətin məhkəmə sisteminin yaradılması ənənəvi olaraq ən yüksək qanunvericilik – ölkə Konstitusiyası səviyyəsində həll olunur, belə ki, söhbət insan və vətəndaş hüquqlarına riayət olunmasına məhkəmə qarantiyalarının təmin olunmasından gedir. Bu zaman məhkəmə sistemi dedikdə, səlahiyyətlərinin bölünməsi, inzibati-ərazi bölgüsündən və məhkəmələr arasındakı təşkilati əlaqələrdən asılı olaraq pillələrə bölgü, məhkəmə instansiyaları və məhkəmə orqanlarının özünün daxili strukturları arasında prosessual əlaqələrin müəyyən olunması əsasında qurulmuş məhkəmə orqanlarının məcmusu başa düşülür.

Fikrimizcə, müasir məhkəmə sistemlərini təhlil edərkən ən əvvəl universal yurisdiksiyalı məhkəmələrin və ixtisaslaşmış məhkəmələrin səciyyəvi cəhətlərini qeyd etmək lazımdır.

Universal yurisdiksiyalı məhkəmələrin daxil olduğu məhkəmə sistemi hüququn bütün sahələri üzrə yaranan mübahisələrə baxır. Bu cür məhkəmələrin daxilində, bir qayda olaraq, ixtisaslaşma və ya daxili xüsusi bölmələr (müvafiq işlər üzrə kollegiyalar) var. Bu cür məhkəmələr istənilən işlərə, o cümlədən hüquq normalarının konstitusiyaya uyğunluğu, daha doğrusu, qanunun normalarının konstitusiyaya uyğunluğu məsələsinə baxa bilər. Bu tip məhkəmələr müxtəlif variantlarda ola bilər və bəzi mübahisələr yalnız yuxarı instansiyalı bu cür universal məhkəmələrə aid ola bilər, bəzilərinə isə istənilən səviyyədə baxıla bilər. Məsələn, ABŞ-da demək olar ki, hər bir məhkəmə istənilən hüquq normalarının, o cümlədən qanunların konstitusiyaya uyğunluğuna baxa bilər.

Məhkəmə sistemlərinə ixtisaslaşmış məhkəmələr də daxil ola bilər. Bu halda məhkəmələrin öz iyerarxiyasına malik olan müstəqil yarımsistemləri formalaşdırılır. Ümumi məhkəmələrin`, ayrıca inzibati məhkəmələrin sistemi ayrıca qurulur; hərbi, əmək, vergi, maliyyə və s. məhkəmələr ayrıca mövcud olur. Bu sistemlər aşağı pillələrə malikdir və yuxarı pillələrlə tamamlanır. Məsələn, bu cür model Almaniyanın Əsas Qanununda nəzərdə tutulub.

Məhkəmənin ixtisaslaşmasından, ümumi səlahiyyətli məhkəmələrin və ya hər hansı xüsusi məhkəmələrin olmasından asılı olmayaraq, istənilən məhkəmələr müəyyən quruluşa, daha dəqiq desək, məhkəmə orqanlarının iyerarxik və ya şaquli strukturuna malikdir. Bu isə tərəflərin, yaxud təqsirləndirilən şəxsin çıxarılmış qətnamədən və ya hökmdən şikayət vermək şansının və aşağı məhkəmənin qərarını yoxlayan instansiyanın olması üçün edilir. Aralıq məhkəmə instansiyalarının sayı müxtəlifdir. Bu ilk növbədə ölkənin ölçüsündən asılıdır. Belə ki, Nauru, Tuvalu kimi əhalisi 10 min nəfərdən az olan çox kiçik ölkələr istisna olmaqla, bütün dövlətlərdə ümumi məhkəmələrin bir neçə pilləsi fəaliyyət göstərir. Kiçik ölkələrdə bu cür məhkəmə instansiyalarının sayı iki ola bilər. Ümumiyyətlə isə məhkəmə sistemi elementlərinin sayı 2-dən 4-dək olur. Bundan asılı olaraq məhkəmələr, birinci, ikinci, üçüncü, dördüncü instansiya adlanırlar.

İkipilləli məhkəmə sistemlərinə gəldikdə isə onlara çox nadir hallarda, sadə inzibati-ərazi bölgüsü və azsaylı əhlisi olan kiçik dövlətlərdə rast gəlinir. Bu halda birinci instansiya məhkəməsi əsas məhkəmə kimi çıxış edir və işlərin əksəriyyətinə baxır, ikinci instansiya məhkəməsi isə aşağı, birinci instansiya məhkəməsinin qərarlarından verilən şikayətlərə baxan məhkəmə qismində çıxış edir.

Qeyd etmək lazımdır ki, müasir dövlətlərdə məhkəmə qərarlarından şikayət verilməsinin iki variantı olduğundan, iki tip məhkəmə instansiyası mövcuddur. Birinci variant keçmiş sovet sistemindən bizə yaxşı məlumdur. Bu ikinci instansiya məhkəməsinin iş ma-

teriallarına formal nöqteyi-nəzərdən baxması və yoxlamasından ibarət kassasiya qaydasında şikayət verilmə qaydasıdır. Orada yalnız şikayətçinin nümayəndəsi və neytral dövlət ədliyyə nümayəndəsinin rəyi dinlənilir. İkinci instansiya məhkəməsi prosesdə hər hansı qüsur taparsa, onda aşağı məhkəmənin qətnaməsini ləğv edir və işi təkrar baxışa göndərir.

İkinci şikayət forması apellyasiya adlanır. Apellyasiya forması zamanı yuxarı məhkəmə tərəfləri cəlb etməklə və şahidləri çağırmaqla bütün işə yenidən baxır. Daha doğrusu, məhkəmə iclası təkrar, lakin daha yüksək ixtisaslı və böyük təcrübəyə malik hakimlər tərəfindən keçirilir, ona görə ki, apellyasiya məhkəmələrinə bir qayda olaraq, kifayət qədər iş stajına malik olan hakimlər seçilir. Bundan başqa, apellyasiya forması həm də – işə təkrar baxılması və mahiyyəti üzrə yeni qətnamə, hökm üzrə yeni qərar çıxarılmasının mümkün olması deməkdir. Apellyasiya məhkəməsi işi təkrar baxışa göndərmir. O, özü şikayət verilən qətnaməyə və ya hökmə yenidən baxa bilər.

Qeyd edək ki, apellyasiya forması bir çox ölkələr üçün xarakterdir. O, ABŞ-da, Fransada, Hindistanda və s. ölkələrdə tətbiq olunur. Şikayətlərə kassasiya qaydasında baxılması isə bir sıra Avropa ölkələrində (İtaliya, Almaniya) istifadə olunur. Məhkəmənin növündən, işin kateqoriyasından və bəzi digər səbəblərdən asılı olaraq, bəzi ölkələrdə hər iki variantın mövcud olması mümkündür. Vəkilin vəzifəsi – işi öz apellyasiya baxışına qəbul etməsinə və kassasiya baxışından sonra təkrar baxışa qaytarmasına məhkəməni inandırmaqdır. Qeyd edək ki, anqlo-sakson hüquq sistemli ölkələrdə məhkəmə işlərinə yalnız apellyasiya qaydasında baxılması mövcuddur, digər ölkələrdə isə həm kassasiya, həm də apellyasiya forması mümkündür.

Bu və ya digər ölkənin məhkəmə orqanları üç aralıq pilləyə malikdirlərsə, onda birinci instansiya bir qayda olaraq, az əhəmiyyətli işlərə baxır, ikinci səviyyəli məhkəmə daha mürəkkəb, daha ağır cəza nəzərdə tutulan və ya iddia məbləğləri daha böyük olan işlərə baxır.

İkinci instansiya məhkəmələri birinci instansiya məhkəmələri üçün apellyasiya və kassasiya məhkəmələri qismində çıxış edə bilər. Üçüncü instansiya məhkəmələri (əksər hallarda onlar ali məhkəmə adlanır) birinci instansiya qismində çox qeyri-adi və nadir işlərə baxırlar və birinci və ikinci pilləli məhkəmələr üçün kassasiya və apellyasiya instansiyaları qismində çıxış edirlər. Üçpilləli məhkəmə sistemlərinə misal olaraq, Bolqarıstanın, Macarıstanın, Polşanın və s. ölkələrin məhkəmələrini göstərmək olar.

Ən mürəkkəb sistem – dördpilləlidir. Dördpilləli sistem üçpilləli sistemdə olduğu kimi qurulur, lakin dörd pillə mövcud olur. Dördüncü pillə - Ali məhkəmədir; o, bir qayda olaraq işlərə birinci instansiya qaydasında baxmır və ali kassasiya və apellyasiya instansiyası hesab olunur. Dördpilləli sistemlər Fransada, İtaliyada və s. ölkələrdə mövcuddur.

Bunlardan başqa daha mürəkkəb formalar da mövcuddur, lakin onlar əsasən hər hansı konkret təsnifata uyğun gəlmirlər və ölkənin tarixi xüsusiyyətləri ilə əlaqədar mövcuddurlar. Bura məsələn, Böyük Britaniyanın və ABŞ-ın bəzi ştatlarının məhkəmə sistemlərinin arxaik formaları aiddir.

Adətən, federativ dövlətlərdə məhkəmə sistemlərinin qurulmasının kifayət qədər mürəkkəb sistemi mövcud olur, belə ki, orada federasiya subyektlərinin məhkəmə sistemini ümumfederal sistemlə uyğunlaşdırmaq lazım gəlir. Federativ dövlətlər üçün iki əsas model xarakterikdir: şaquli məhkəmə sisteminin qurulmasının mərkəzləşdirilmiş modeli (onu həm də alman modeli adlandırırlar) və Amerika tipli model. Qarışıq modellər də mövcuddur (Avstraliya, Kanada).

Amerika modeli – həm federal şaquli məhkəmə sistemini, həm də ştatların məhkəmə sistemini özündə birləşdirən üçpilləli məhkəmə sistemidir. Federal məhkəmə sistemi üç pillədən ibarətdir və Birləşmiş Ştatların bütün ərazisində fəaliyyət göstərir. Bundan başqa ABŞ-ın hər bir ştatı öz məhkəmə sisteminə malikdir. Ştatların əksəriyyəti də qeyd olunan prinsip üzrə qurulmuş üçpilləli sistemə malikdir: dairə məhkəməsi, apellyasiya məhkəməsi və Ali məhkəmə. Lakin, bu klassik sistemdən bəzi kənaraçıxmalar da var. Bəzi ştatların öz

xüsusiyyətləri var: məsələn, yerli məhkəmələr və ya ədalət məhkəmələri (Kaliforniya ştatı) mövcuddur və bu yerli məhkəmələr ən aşağı səviyyəli ən aşağı məhkəmə qismində sistemi tamamlayır. Bəzi ştatlarda əsası hələ müstəmləkə dövründə qoyulmuş ənənəvi məhkəmə sistemləri saxlanılıb. Məsələn, Kolorado və Massaçusets ştatlarında yeddi səviyyədən ibarət tamamilə qeyri-tipik sistem mövcuddur. Ştatların məhkəmələri qanunvericilər tərəfindən federal məhkəmə sisteminin səlahiyyətinə aid edilməyən məhkəmə işlərinə baxırlar. Lakin, Amerikada hüquqşünaslar arasında federal məhkəməyə və ya ştat məhkəməsinə müraciət etməklə bağlı mübahisələr yaranır, belə ki, bəzi işlərə həm bu, həm də digər məhkəmə tərəfindən baxıla bilər.

Mərkəzləşdirilmiş sistem daha xarakterik şəkildə Almaniyada təmsil olunub. Almaniyanın məhkəmə sistemi çox özünəməxsusdur, lakin onun başlıca cəhəti ondan ibarətdir ki, torpaqların məhkəmələri və federal məhkəmələr arasında səlahiyyət bölgüsü yoxdur. Torpaqların məhkəmələri Almaniyanın bütün məhkəmələrinin sisteminə daxildir, daha doğrusu ümumfederal məhkəmələr sisteminə aid edilir. Almaniyanın bütün məhkəmələri mərkəzləşdirilmiş şikayət sistemi ilə birləşdirilib. İnstansiya qismində torpaqların ən aşağı səviyyəli məhkəmələrindən başlayan bütün məhkəmələr daxildir; ən ali məhkəmə isə federal məhkəmədir.

Almaniyanın müxtəlif məhkəmə sistemlərində məhkəmə pillələrinin sayı müxtəlifdir. Məsələn, inzibati məhkəmələr, əmək məhkəmələri və sosial məhkəmələr üç pilləlidir, ümumi ədliyyə sistemi isə (cinayət və mülki işlər) – dörd pilləlidir.

Müasir məhkəmələrin ən geniş yayılmış tipləri barədə məsələyə gəldikdə isə, ən geniş yayılanlar cinayət və mülki işlərə baxan ümumi məhkəmələr və ya ümumi səlahiyyətli məhkəmələrdir. Bu məhkəmələrin hakimlərinin peşəkar hüquqşünaslar olmasına baxmayaraq, bir çox ölkələrə məhkəmə işlərinə xüsusi kollegiyalar – andlılar məhkəməsi yaradan qeyri-peşəkar hakimlərin–adi vətəndaşların cəlb olunması xüsusiyyəti xasdır. Bu cür məhkəmələr hadisəni qiymətləndirməli və cinayət işləri üzrə «təqsirkardır», «təqsiri yoxdur» və ya «mərhəmətə layiqdir» kimi qərarlar qəbul etməlidirlər, peşəkar hakim isə cəza həddini təyin etməlidir. "Müxtəlif ölkələrdə olan andlılar məhkəmələrinin əsas oxşarlığı ondan ibarətdir ki, burada "hüquq hakimlərinin" (peşəkar hakimlərin) və "fakt hakimlərinin" (andlı iclasçılar və ya başqa cür adlandırılan – münsiflər) bir məhkəmənin tərkibində ayrı-ayrılıqda mövcud olmasıdır" (1).

Həmçinin qeyd etmək lazımdır ki, andlılar məhkəməsi mülki işlər üzrə də tətbiq olunur. Orada onlar barəsində mübahisə gedən hadisənin olub-olmaması problemini həll edirlər. Javabdeh iddiaçının tələblərini mübahisələndirisə, onda andlı iclasçıların işi – kimin haqlı olduğunu müəyyən etməkdir.

Fikrimizcə, ümumi məhkəmələrin iki böyük qrupa – anqlo-sakson sistemi üzrə qurulmuş və fəaliyyət göstərən məhkəmələrə və kontinental model üzrə fəaliyyət göstərən məhkəmələrə bölünməsində müəyyən müsbət cəhətlər var. Məsələn, anqlo-sakson model üçün bir sıra spesifik əlamətlər xarakterdir. Onların sırasına birincisi, ümumi hüququn tətbiq olunmasını, daha doğrusu, hüququn mənbəyi qismində məhkəmə presedentlərindən istifadə olunmasını və məhkəmə qərarlarının tanınmasını aid etmək lazımdır. İkincisi, anqlo-sakson model üçün prosessual normaların məhkəmə tərəfindən hazırlanması xarakterdir. Başqa sözlə desək, məhkəmələr tərəfindən nəinki maddi hüquq, həm də işlərə baxılmasının prosessual normaları yaradılır. Üçüncüsü, bu sistem üçün işlərə yenidən baxılmasının apellyasiya forması və prosesin çəkişmə şəraitində aparılması xarakterdir və bu zaman dövlət ittihamçı qismində çıxış etmir, istənilən işə isə tərəflərin mübarizəsi kimi baxılır. Hakim prosesdə - neytral subyektdir. O, tərəfləri dinləyir və çəkişməyə, tərəflərin mübarizəsinə qarışmadan qərar qəbul edir. Hətta bu cinayətkarın ittiham olunması üzrə cinayət işinə baxışdırsa və prokuror ittihamı dəstəkləyirsə, hakim dövlət qulluqçusu olmasına baxmayaraq, prokurora kömək etmir və dövlətin xeyrinə əlavə sübutlar toplamağa çalışmır. O, yalnız məhkəmə prosesində təqdim olunmuş sübutları qiymətləndirir. Prokuror it-

tihamı sübut edə bilməzsə, hakim işi təkrar istintaqa qaytarmır və təqsirləndirilən şəxsə bəraət verir. Anqlo-sakson sistemi üçün andlı iclasçıların müntəzəm cəlb olunması və hakimlərin, xüsusilə aşağı pilləyə aid olan məhkəmələrin hakimlərinin təyin olunması deyil, seçilməsi praktikası xarakterdir. Bundan başqa dünyanın əksər ölkələrindən fərqli olaraq, İngiltərədə hakim vəzifəsi onun xüsusi peşə və ya karyera ilə əvəz olunmasını tələb etmir. Bu o deməkdir ki, hakimin öz yolunu məhkəmə pilləkanının aşağı pillələrindən başlayan, sonra isə peşə xətti üzrə artaraq məhkəmə ierarxiyasında getdikcə daha yüksək vəzifələr tutan hüquqşünas olması məcburi deyil (2).

Nümunə qismində alman məhkəmə sisteminin çıxış etdiyi kontinental model məhkəmələrin sistemini və strukturunu müəyyən edən və işin prosessual formalarını ətraflı təsbit edən yüksək inkişaf etmiş qanunvericilik bazasının olmasını göstərmək olar. Bu model üzrə qanunlar məhkəmələrin fəaliyyətinin praktiki olaraq bütün sferalarını təsvir və təsbit edir. Bu model məhkəmə presedentini tanımır. O, şikayət vermənin apellyasiya formasından başqa kassasiya formasını da, habelə məhkəmə qərarlarından şikayət verilməsinin nəzarət və ya təftiş formasını da tanıyır. Bu sistem üçün hakimin prosesdə aktiv rolu və anqlo-sakson sistemindən fərqli olaraq, hakimlərə üstünlük təşkil edən əhəmiyyət verilməsi xarakterikdir.

Anqlo-sakson və kontinental məhkəmə modellərinin əsas inkişaf istiqamətlərinin dərin təhlili bizə təsdiq etməyə əsas verir ki, müasir dövrdə hər iki sistemin yaxınlaşması müşahidə olunur. Hakimlərin prosessual iş formalarının qanunvericiliklə aktiv şəkildə nizamlanması, maddi hüququn bazasının genişləndirilməsi anqlo-sakson sistemi üçün getdikcə daha səciyyəvi olur, kontinental sistem ölkələri isə qanunvericilikdəki boşluqların doldurulması üçün hakimlərin qərarlarını tətbiq etməyə başlayıblar. Bir növ presedentlərin rolu tanınmağa başlayır. Daha doğrusu, məhkəmələrin hüquqyaratma səlahiyyətlərinin genişləndirilməsi kontinental məhkəmə sistemi üçün də səciyyəvi olmağa başlayıb.

Əlbəttə, bu xarakteristikaları müqayisə etsək, aydın olur ki, sovet və postsovet sistemi üçün ədalət mühakiməsinin məhz kontinental - alman modeli səciyyəvidir.

Əhalinin mühakimə icraatında geniş iştirakı məsələsinə toxunarkən, qeyd etmək lazımdır ki, andlılar məhkəməsindən başqa vətəndaşlar digər formada da ədalət mühakiməsinin həyata keçirilməsinə cəlb olunurlar. Bu adi insanların seçilən qeyri-peşəkar hakimlər qismində cəlb olunmasıdır. Onlar xalq iclasçıları, məhkəmə iclasçıları, assizlər, şeffenlər, xalq hakimləri və s. adlandırıla bilərlər. Məsələn, totalitar sosialist ölkələrində xalq iclasçıları vətəndaşların iş yeri üzrə yığıncaqlarında açıq səsvermə yolu ilə seçilirdilər. Assizlər, şeffenlər, andlı iclasçılar bələdiyyə şuraları tərəfindən ləyaqətli vətəndaşlar arasından seçilir: onların ümumi siyahısı tərtib olunur, sonra isə püşkatma yolu ilə onlar məhkəmə iclaslarında iştirak edirlər. Konkret işə baxılmaq üçün andlı iclasçıların seçilməsi hakimin məhkəmə prosesində tərəflərlə razılaşdırılmış qərarı ilə də həyata keçirilə bilər.

İctimaiyyətin məhkəmə prosesinə cəlb olunmasının işə qeyri-peşəkar da olsa, qərəzsiz baxış imkanı verməsi şübhəsizdir. Onlar baş vermiş hadisənin sadə insan nöqteyi-nəzərindən qiymətləndirilməsi, zərurət olduqda cəza həddinin seçilməsi zamanı hakimə təsir göstərilməsi, zərərçəkənin, təqsirləndirilən şəxsin, şahidlərin dindirilməsinə kömək göstərilməsi, prosesə daha çox real həyat gətirmək üçün dəvət olunurlar. Ona görə ki, hər gün öz işi ilə məşğul olan peşəkar-hakim normal insan hissiyyatını itirə və peşə deformasiyasına məruz qala bilər. Buna görə də adi vətəndaşların prosesə cəlb olunması məhkəmə iclasını daha obyektiv və canlı edir. Vətəndaşların cəlb olunmasının bu cür formaları Macarıstanda, Bolqarıstanda, lakin təkcə keçmiş sosialist ölkələrində deyil, habelə İtaliyada, Almaniyada tətbiq olunur. Bu cür qeyri-peşəkar hakimlər və iclasçılar məhkəmə prosesində peşəkar hakimlərlə bərabər hüquqlardan istifadə edirlər və zəruri hallarda cəzanın bu və ya digər variantına və ya təqsirləndirilən şəxsə bəraət verilməsi və ya məhkum olunması barədə səs verərək qərar qəbul edirlər. Bəzən bu cür qeyri-peşəkar hakimləri "andlılar" adlandırırlar, baxmayaraq ki, onlar andlı iclasçılar deyillər.

Həmçini qeyd etmək lazımdır ki, bəzi ölkələrin məhkəmə sistemində xüsusi məhkəmələr də fəaliyyət göstərir. Əksər hallarda cinayət və ya mülki qanunvericilik çərçivəsindən kənara çıxan mübahisələrə, münaqişələrə baxan məhkəmələri xüsusi məhkəmələr adlandırırlar. Xüsusi məhkəmələr arasında ən geniş yayılanları və ya xarakterik olanları inzibati ədliyyə məhkəmələridir. Məhkəmələrin bu kateqoriyaları dövlət orqanlarının – ali dövlət orqanlarının deyil, orta və aşağı pilləyə aid dövlət orqanlarının qərarlarından verilən şikayətlərə baxırlar. Bu kifayət qədər yayılmış məhkəmə sistemidir. Onlar bir sıra Avropa dövlətləri üçün xüsusilə səciyyəvidir. Məsələn, Almaniyada, İtaliyada, Fransada, Polşada, Bolqarıstanda və s. ölkələrdə inzibati məhkəmələr mövcuddur.

Konstitusiyasında inzibati məhkəmələr barədə müddəa olmayan ölkələrdə bu məhkəmələr ya ümumi yurisdiksiyalı məhkəmələr sisteminin qolu qismində mövcuddur, ya onların funksiyaları ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həyata keçirilir, ya da nəhayət, bu funksiyalar ixtisaslaşdırılmış inzibati məhkəmələrlə ümumi yurisdiksiyalı məhkəmələr arasında bölünür.

Böyük Britaniyada və ABŞ-da inzibati aktlar üzərində məhkəmə nəzarəti ilkin olaraq ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həyata keçirilirdi, lakin XX əsrdə orada bu funksiyanın yerinə yetirilməsi üçün ixtisaslaşdırılmış orqanlar yaranmağa başladı və əsrin sonlarında bu orqanların əhəmiyyəti xeyli artdı. Onlar kvazиməhkəmələr adlanır və hazırda inzibati idarələr sistemindədir. Bu zaman onlar zəruri minimum prosessual təminatları saxlayan sadələşdirilmiş prosedur (çəkişmə və aşkarlıq kimi prinsiplər məhdudlaşdırılıb) nəticəsində işləri adi məhkəmələrdən xeyli tez həll edirlər. Bu orqanlardan bəziləri məhkəmələrə çox yaxındır və hətta məhkəmələr adlanır. Məsələn, ABŞ-da Pretenziya və Vergi Məhkəmələri bu cürdür. Lakin, hər iki ölkədə inzibati yurisdiksiyalı ixtisaslaşdırılmış orqanlar ümumi yurisdiksiyalı məhkəmələrin nəzarətindədir. Sonuncular məhkəmə əmrləri vasitəsilə inzibati aktların qanuniliyi üzərində bilavasitə nəzarəti həyata keçirirlər. Məsələn, mandamus (writ of mandamus) – vəzifəli şəxsi onun səlahiyyətinə daxil olan hərəkəti etməyə və ya aktı qəbul etməyə məcbur edən məhkəmə əmridir; incankşn (writ of incunction) - vəzifəli şəxsə hərəkəti etməyi və ya aktı qəbul etməyi qadağan edən məhkəmə əmridir.

Almaniya - inzibati ədliyyənin, məhkəmə hakimiyyətinin öz ali məhkəməsi olan müstəqil qolu şəklində təmsil olunduğu ölkəyə misaldır. 1960-cı il tarixli inzibati məhkəmələr haqqında Əsasnaməyə uyğun olaraq Almaniyada konstitusiya-hüquqi xarakterli mübahisələrdən başqa, inzibati məhkəmələrin səlahiyyətinə - vətəndaşların dövlət orqanlarının və vəzifəli şəxslərin qərar və hərəkətlərindən verdiyi şikayətlərlə, ərazi vahidləri arasındakı mübahisələrlə, dövlət qulluqçularının hüquqları haqqında mübahisələrlə bağlı işlərə baxan digər məhkəmələrin yurisdiksiyasına aid edilməyən ümumi-hüquqi xarakterli bütün mübahisələrə baxılması aiddir. Almaniyada inzibati məhkəmələr dövlət orqanlarının və vəzifəli şəxslərin qərarlarını ləğv edə və ya əksinə bu və ya digər qərarı qəbul etməyə dair onlara göstəriş verə, hüquqi faktları müəyyən edə bilər. Onlar mübahisələndirilən inzibati qərarların məqsədəuyğunluğu məsələlərini araşdırmırlar və yalnız onların qanuniliyini yoxlayırlar. Almaniyada inzibati məhkəmələr sisteminə üç instansiya daxildir:

1) inzibati məhkəmə;
2) torpağın ali inzibati məhkəməsi –apellyasiya instansiyası;
3) federal inzibati məhkəmə - kassasiya instansiyası.

Onların hamısı kollegial fəaliyyət göstərir. İlk iki instansiyaya aid olan inzibati məhkəmələr işləri üç peşəkar hakimdən və hər hansı müəyyən peşə qruplarına aid olmayan vətəndaşlar sırasından dörd il müddətinə seçilən iki iclasçıdan ibarət tərkibdə həll edirlər; federal inzibati məhkəmə isə beş nəfər hakimdən ibarətdir. İnzibati məhkəməyə müraciət, bir qayda olaraq, o halda mümkündür ki, şəxsin şikayəti mübahisələndirilən aktı verən orqana münasibətdə yuxarı inzibati instansiya tərəfindən rədd olunmuş olsun. Şikayətdə söhbət torpağın hüququnun pozulmasından gedirsə, torpağın yuxarı inzibati məhkəməsinin qərarı qətidir.

Göründüyü kimi, bu kateqoriya işlərə baxılması zamanı inzibati məhkəmədə iddiaçı - ərizəçi və cavabdeh – dövlət inzibati idarəsinin, daha doğrusu, icra hakimiyyəti orqanının nümayəndəsi iştirak edir. İnzibati mübahisələrin həll olunması zamanı inzibati məhkəmələr ümumi inzibati orqanların və vəzifəli şəxslərin aktlarının qanuniliyini yoxlayır və bu aktlarla qanunun pozulduğu hallarda ya onları ləğv edir, ya da həmin aktı qəbul edən və ya onun yuxarı orqanlarının və ya vəzifəli şəxslərinin üzərinə onları ləğv etmək və ya dəyişdirmək vəzifəsi qoyur. Bundan başqa bir sıra ölkələrdə inzibati ədliyyənin ali orqanlarının üzərinə ümumi inzibati orqanların qəbul etdiyi normativ aktların konstitusiyaya uyğunluğunun və qanuniliyinin yoxlanılması vəzifəsi qoyulmuşdur.

Beləliklə, inzibati ədliyyə - insan və vətəndaşın hüquq və azadlıqlarının və bütövlükdə hüquq qaydasının təmin olunmasının mühüm institutudur. Bir çox qərb ölkələrində və onların hüquq sistemlərini əxz edən inkişaf etməkdə olan ölkələrdə inzibati ədliyyə institutunun onların konstitusiyalarında öz əksini tapmamalarına baxmayaraq, Almaniya, İtaliya, Fransa, Bolqarıstan, Çexiya və bir sıra digər ölkələrin konstitusiyalarında ən azı inzibati ədliyyənin ali orqanları haqqında müddəa var.

İnzibati məhkəmələrin qərarları dövlət inzibati orqanlarının aktlarını ləğv edə bilər, yaxud inzibati məhkəmələr vəzifəli şəxsləri hansısa zəruri hərəkətlər etməyə məcbur edən məhkəmə qətnamələri verə bilərlər. İnzibati məhkəmələr, həmçinin hüquqi faktları da müəyyən edə bilərlər. İnzibati məhkəmələrin işinin əsas mahiyyəti - dövlət inzibati orqanlarının qərarlarının qanuniliyinin, onların qanunlara və konstitusiyaya uyğunluğunun yoxlanılmasıdır.

İnzibati məhkəməyə müraciət etmək imkanı, bir qayda olaraq, hər hansı dövlət orqanının vətəndaşın və ya hüquqi şəxsin şikayətini təmin etməkdən imtina etməsindən sonra yaranır. Daha doğrusu, bu - imtinaya reaksiya formasıdır. Müqayisələr aparsaq, inzibati ədliyyə orqanlarının fəaliyyəti, inzibati məhkəmələrin işi konstitusiya məhkəmələrinin işini xatırladır. Lakin, sonunculardan fərqli olaraq, qanunların konstitusiyaya uyğunluğu deyil, qanun qüvvəli aktların, daha doğrusu – icra hakimiyyəti orqanlarının aktlarının və hərəkətlərinin qanunlara və konstitusiyaya uyğunluğu yoxlanılır.

İnzibati məhkəmələr sistemi də şaquli şəkildə qurulur və bir qayda olaraq, iki və ya üç instansiyadan ibarət olur. Bu aşağı pilləyə aid inzibati məhkəmə, regional səviyyəli inzibati məhkəmə və ali inzibati məhkəmə ola bilər.

İxtisaslaşmış məhkəmələrin növbəti növünü əmək mübahisələri üzrə məhkəmələr və ya Almaniyada adlandırıldığı kimi - əmək yurisdiksiyası üzrə məhkəmələr adlandırmaq olar. Məhkəmələrin bu kateqoriyası işçilərlə işəgötürənlər arasındakı mübahisələrə baxır. Bu mübahisələr kollektiv və ya tarif müqavilələri, işçilərin müəssisənin işində iştirakı, işdən çıxarılma, işçilərin sayının ixtisarı və s. ilə bağlı ola bilər. Bu məhkəmələr də öz şaquli xətti üzrə bir neçə pilləyə malikdir. Onlar rayon və regional səviyyəli ola bilər; bu məhkəmələrin iyerarxiyası əmək mübahisələri üzrə Ali Məhkəmə ilə tamamlana bilər.

İxtisaslaşmış məhkəmələr sistemində tez-tez maliyyə yurisdiksiyası və ya maliyyə məhkəmələri fərqlənir. Hələ onlar vergi məhkəmələri də adlandırıla bilər. Bu cür məhkəmələrdə vergi ödəyicisinin nöqteyi-nəzərindən yüksək müəyyən olunan vergilərlə bağlı vergi müfəttişliyi orqanlarının qərarları mübahisələndirilir, yaxud bu məhkəmələr vasitəsilə vaxtında ödənilməyən vergilər və s. ilə bağlı pretenziyalar irəli sürülə bilər. Maliyyə yurisdiksiyası orqanları və ya vergi (maliyyə) məhkəmələri vergi ödənilməsinin subyektləri olan hüquqi və fiziki şəxslərlə bu vergiləri yığan orqanlar arasında mübahisələrə baxır.

Bəzi ölkələrdə maliyyə məhkəmələri gömrük orqanlarının da pretenziyalarına baxa bilərlər. Əksər hallarda maliyyə məhkəmələrinin üç pilləli strukturu olmur və onlar adətən iki pillədən ibarət olur: ilkin və ali səviyyə (daha doğrusu, şikayət etmək üçün orqan).

Bir sıra ölkələrdə sosial yurisdiksiyalı məhkəmələr sırasına aid edilən məhkəmələr kateqoriyası mövcuddur. Bu məhkəmələr şəxslərin sosial təminatı ilə bağlı problem və mübahisələrlə məşğul olurlar. Bura pensiya təyin olunması ilə bağlı mübahisələr, veteranların,

əlillərin, qocaların mübahisələri aiddir. Burada sığorta həkimlərinin mübahisələrinə də baxıla bilər. Bu inzibati ədliyyənin ayrıca sferasıdır. Xüsusi məhkəmələrin olmadığı ölkələrdə bu cür məsələlərə əksər hallarda inzibati məhkəmələr baxırlar. Bu cür məhkəmələr də, bir qayda olaraq, iki pilləli sistemə malikdirlər.

Bəzi ölkələrdə məhkəmələrin kifayət qədər özünəməxsus qrupu – patent məhkəmələri fərqləndirilir. Onlar ixtiraçılarla patentləri və ixtiraları qeydiyyata almalı olan dövlət orqanları arasındakı mübahisələrə və ixtiraçı və müəlliflərin özləri arasında onların yaradıcılıq məhsullarının ilkinliyi ilə bağlı mübahisələrə baxılır.

Postsovet məkanında məlum olan məhkəmələrdən xüsusi məhkəmələrdən yalnız hərbi məhkəmələri göstərmək olar. Məlum olduğu kimi, bu cür məhkəmələr MDB ölkələrinin əksəriyyətində hərbi tribunallar adlanır. Xarici ölkələrin əksəriyyətində də bu tip məhkəmələr var. Onlar bir qayda olaraq, iki instansiyadan ibarət olur və xüsusi qanunvericilik əsasında fəaliyyət göstərirlər. Hərbi qulluqçular tərəfindən törədilmiş cinayətlərə dair xüsusi cinayət-prosessual məcəllələr və ya bu məcəllələrin bölmələri, habelə cinayət məcəllələrinin fəsilləri mövcuddur. Təbii ki, hərbi qulluqçular üçün olan məhkəmələrdə peşəkar hakimlər, bir qayda olaraq, ordunun, hərbi ədliyyənin nümayəndələri olur.

Xüsusi məhkəmələrin ayrıca qrupunu intizam məhkəmələri və şərəf məhkəmələri təşkil edir. Bu növ məhkəmələr dövlət qulluqçuları, məmurlar və bütün digər işlərə baxmaqla məşğul olan hakimlər barəsində mübahisələrə baxır və onlara qarşı təsir tədbirləri tətbiq edirlər. Onlar məmurlar, hakimlər və digər dövlət qulluqçuları barəsində tənbeh tədbirləri tətbiq edə bilərlər. Bu, bir qayda olaraq, xidməti xətalarla bağlıdır və cinayət təqibi deyil. Bu cür məhkəmə tərəfindən tətbiq oluna bilən ən yüksək təsir tədbiri - real cinayət cəzası tədbirləri tətbiq edə bilən hərbi məhkəmələrdən fərqli olaraq - xidmətdən qovulma, pensiya, istefa hüququndan və s. məhrum edilmə ola bilər.

Təbii ki, intizam məhkəmələri təkcə hakimlərə deyil, həm də xüsusi dövlət fəaliyyəti ilə məşğul olan digər hüquqşünaslara: prokurorlara, notariuslara, bir sıra hallarda hüquqşünasların digər kateqoriyalarına qarşı da tədbirlər görür. Onlar vəkillər, hüquq məsləhətçiləri, vergi işləri üzrə müvəkkillər və etibar olunmuş şəxslər, auditorlar və s. tərəfindən yol verilmiş xətalara dair işlərə baxa bilərlər.

Bəzi ölkələrdə xüsusi məhkəmələr yaradılmır, lakin ikinci və ya üçüncü pilləli məhkəmələrdə, daha doğrusu, ümumi səlahiyyətli yuxarı məhkəmələrdə xüsusi kateqoriyalı işlərə baxılması üçün xüsusi strukturlar yaradıla bilər. Daha doğrusu, ümumi yurisdiksiyalı məhkəmələrdə xüsusi kateqoriyalı işlərə baxılması üçün ayrıca palatalar və ya kollegiyalar ola bilər.

Xüsusi məhkəmələrin qeyd olunan Avropa variantlarından başqa xüsusi məhkəmələrin digər kateqoriyaları da mövcuddur. Məsələn, ABŞ-da maliyyə-pul məsələləri və ABŞ hökuməti ilə bağlı mübahisələr üzrə pretenziyalara baxan və qərarlar qəbul edən pretenziya məhkəmələri mövcuddur. ABŞ-da həmçinin müflisləşmə işləri üzrə məhkəmələr də vardır. Onlar hər hansı firmanın və ya müəssisənin müflis elan olunması haqqında qərar qəbul edirlər. Bu məhkəmələrin qərarları daha yüksək səviyyəli ümumi məhkəmələrdə: ya ABŞ-ın federal dairə üzrə apellyasiya məhkəmələrində, ya da dairə məhkəmələrində mübahisələndirilə bilər. Bu cür məhkəmələrin şaquli xətti, ikinci xüsusi pilləsi yoxdur. ABŞ-da şəxslərlə gömrük orqanı arasında mübahisələrə baxan birinci instansiya məhkəmələri var. Bu gömrük məhkəmələridir. Ümumiyyətlə, ABŞ-da Amerika Konstitusiyasına əsasən məhkəmələrin vahid sistemi yoxdur: ABŞ-da məhkəmə hakimiyyətinə yalnız Ali Məhkəmə və zərurət olduqca Konqres tərəfindən yaradılacaq və təsis olunacaq aşağı məhkəmələr malikdir. Məlum olduğu kimi, Konqres kifayət qədər çox müxtəlif məhkəmələr yaradıb.

Məhkəmə sisteminə qeyri-dövlət məhkəmələrinin də daxil olduğu ölkələrin sayı az deyil. Jiddi desək, qeyri-dövlət məhkəmələri konstitusiya nizamlanması çərçivəsindən kənardadır. Lakin bu məsələ kifayət qədər maraqlıdır və ictimai-dövlət həyatının bu elementi müəyyən şəkildə "məhkəmə hakimiyyəti" anlayışı ilə bağlı olduğundan fikrimizcə, bu

məsələ üzərində də qısaca olaraq dayanmaq lazımdır.

Qeyri-dövlət məhkəməsinin nə olması bizim vətəndaşlara da məlumdur, belə ki, bizim vətənimizdə də uzun müddət müxtəlif xırda hüquq pozuntularına, habelə ictimaiyyət tərəfindən baxılmaq üçün milis tərəfindən göndərilən işlərə baxan yoldaşlıq məhkəmələri mövcud olub. Yoldaşlıq məhkəmələri müəssisələrdə və yaşayış yeri üzrə evlər idarələrində olurdu.

Qeyri-dövlət məhkəmələri sırasına məhkəmələrin tam ciddi kateqoriyasını – ticarət palataları yanında münsiflər məhkəmələrini aid etmək olar. Hər iki tərəf (iddiaçı və cavabdeh) onların işinə etibar etdikləri hüquqşünas tərəfindən və ticarət palatası kimi layiqli təsisat tərəfindən baxılmasına razıdırlarsa, münsiflər məhkəməsi kommersiya təşkilatlarının biri-birinə qarşı pretenziyalarına baxa bilərlər.

Bu cür orqanlar təkcə keçmiş İttifaq ərazisində deyil. Onlar "mediator" (ictimai hakim) kimi vəzifənin mövcud olduğu Fransada da məlumdur. İtaliyada da "konsiliator" adlanan qeyri-dövlət məhkəmələri var. Hindistanda da ailə münaqişələrinə və problemlərinə: alimentlər, borcun qaytarılması (kiçik məbləğlər), qonşular arasında torpaq sahələrinin sərhədləri, böyük evlərdə səs-küylə bağlı qonşular arasındakı mübahisələr və s. ilə bağlı işlərə baxa bilən xalq məhkəmələri və hakimlər var. Adətən, bu cür hallarda ictimai məhkəmələr, hər iki tərəf bu cür məhkəməyə müraciət etməyə və onun qərarına tabe olmağa razı olduğu hallarda mübahisəyə baxır. Bu cür razılıq olmadıqda isə onlar dövlət məhkəməsinə müraciət edə bilərlər.

Qeyri-dövlət məhkəmə strukturları qismində müsəlman ölkələrində adət hüququ əsasında fəaliyyət göstərən məhkəmə orqanlarını da nəzərdən keçirmək zəruridir. Bu cür məhkəmələr əsasən Afrikada və bəzi MDB ölkələrində (Qazaxıstan və Qırğızıstan) fəaliyyət göstərir.

Xüsusi qrup – islamın hakim və rəsmi din olduğu ölkələrdə fəaliyyət göstərən şəriət və ya müsəlman məhkəmələridir. Bu məhkəmələrin yurisdiksiyası işlərin çox geniş dairəsinə şamil edilir, daha doğrusu bu məhkəmələr universal yurisdiksiyaya malikdir.

Barışdırıcı məhkəmələrə gəldikdə isə onları fikrimizcə, yarımdövlət və yarımictimai məhkəmə orqanları sırasına aid etmək lazımdır, çünki bir sıra ölkələrdə barışdırıcı hakim hüquqşünas olmaya da bilər. O, sadəcə olaraq kiçik münaqişə və problemlərə baxan hörmətli insandır. Bəzi ölkələrdə barışdırıcı hakimlər hətta ictimai əsaslarla işləyir. Əksər ölkələrdə bu cür məhkəmələrdə işlərə peşəkar hakimlər tərəfindən baxılsa belə, onların qərarları dövlət ədliyyə mühakiməsi sisteminin bir hissəsi deyil, çünki müvafiq məhkəmələrə müraciət hər iki tərəfin qarşılıqlı razılığı ilə mümkündür. Başqa sözlə desək, bu cür məhkəmələr daha çox münsiflər məhkəməsinə oxşardır, baxmayaraq ki, ayrı-ayrı ölkələrin təcrübəsi müxtəlifdir. Məsələn, bəzi ölkələrdə bu, az əhəmiyyətli işlərə baxan və qərarları tam məcburi olan məhkəmədir.

Nəhayət, qeyri-dövlət məhkəmə orqanları kateqoriyasına fikrimizcə, dini məhkəmələri də aid etmək lazımdır. Bu orqanların iki növünün fərqləndirilməsini zəruri hesab edirik: praktiki olaraq dünyanın bütün ölkələrində (Böyük Britaniya, İspaniya, Rusiya) fəaliyyət göstərən sırf kilsə məhkəmələri (dinlərarası mübahisələrə kanon hüququ (kilsə qanunları) əsasında baxır) və dini məhkəmələr (kanon hüququ əsasında olsa da, daha geniş məsələlər dairəsinə baxır). Onların yurisdiksiyasına təkcə kilsə xadimləri deyil, həm də mülki insanlar düşür (məsələn, bu cür məhkəmələr İsraildə, Polşada mövcuddur).

Bütövlükdə, qeyd etməliyik ki, bu və ya digər ölkədə formalaşmış məhkəmə sistemləri müəyyən sabitliyə malikdir. Onlardan bəziləri bir çox onilliklər ərzində dəyişməz şəkildə və ya cüzi dəyişmiş şəkildə fəaliyyət göstərir. Məsələn, ABŞ-da məhkəmə sistemi 1789-cu il tarixli məhkəmə quruluşu haqqında Aktın, Almaniyada – 1877-ci il tarixli məhkəmə quruluşu haqqında Qanunun, İtaliyada – 1941-ci il tarixli məhkəmə quruluşu haqqında Qanunnamənin bazasında qurulur, Fransada isə hakimlərin statusu 1958-ci il tarixli magistraturanın statusu haqqında Qanunla müəyyən olunur.

Beləliklə, müasir məhkəmə sistemlərinin təhlili təsdiq etməyə əsas verir ki, demək olar, bütün ölkələr əsasən onların ölkələrində əvvəllər qüvvədə olmuş məhkəmə sistemlərini qismən müasirləşdirməklə və daha çox köhnəlmiş elementləri aradan qaldırmaqla qəbul ediblər. Xarici ölkələrin müasir təcrübəsi, mühakimə icraatının ənənəvi formalarının siyasi rejimlərin və məhkəmə siyasətinin vəzifələrinin dəyişməsi ilə bağlı ən müxtəlif məzmunlu yüklərə davam gətirməsi barədə nəticə çıxarmağa kifayət qədər əsas verir (3). Milli məhkəmələrə həsr olunmuş müasir konstitusiya mətnlərinin qisalığının başlıca səbəblərindən biri də çox güman ki, bununla bağlıdır.

## Ədəbiyyat:

1) Məmmədov E. Andlılar məhkəməsi və məhkəmə islahatı // Hüquqi dövlət və qanun, 2003, № 6, s.26.

2) Романов А.К. Правовая система Англии. М., 2000, с.297.

3) Сравнительное конституционное право / Под ред. В.Е.Чиркина, Ю.А.Юдина, М.А.Никифорова. М., 1996, с. 651-652.

**С.И. Бекташи**

## Модели современных судебных систем

### Резюме

В статье, с учетом зарубежного опыта, утверждается, что почти все страны в основном восприняли ранее действовавшие на их территории судебные системы, модернизировав их лишь частично, устранив наиболее устаревшие элементы. Кроме того, глубокий анализ основных направлений развития судебных моделей в странах англо-саксонской и континентальной системы права дает автору основание утверждать, что в современный период наблюдается тенденция сближения обеих систем права. Так, для англо-саксонской системы права становится все более характерным активное законодательное регулирование процессуальных форм работы судов, расширение базы материального права, а в странах континентальной системы права все шире применяют судебные решения для восполнения пробелов законодательства.

**S.I. Bektashi**

## Models of modern judicial systems

### Summary

In article, in view of foreign experience, affirms, that almost all countries basically have apprehended judicial systems earlier working in their territory, having modernized them only in part, having removed the most out-of-date elements. Besides the deep analysis of the basic directions of development of judicial models in the countries of Anglo-Saxon and continental system of the right gives the author the basis to approve, that during the modern period the tendency of rapproachement of both systems of the right is observed. So, for Anglo-Saxon system of the right there is more and more characteristic an active legislative regulation of remedial forms of work of courts, expansion of base of the substantive law, and in the countries of continental system of the right all apply judgements to completion of blanks of the legislation more widely.

Rəyçi: h.e.d., prof. M.F. Məlikova
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutunun Elmi Şurasının 07 noyabr 2007-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 11).